DOI:10.30546/gdu.5.2025

**UOT:94(479.24).**

# *“YENİ QONŞULUQ” PROQRAMINDA CƏNUBİ QAFQAZ DÖLƏTLƏRİ*

***t.ü.f.d., dosent Hacıyeva Xatirə Ziya qızı***
***ADU Qafqazşünaslıq vəAzərbaycan tarixi kafedrası***
*hajiyeva_1506@mail.ru*
***Orchid id:0000 0002 3962 6612***

**Xülasə:** *Avropaya inteqrasiyanın genişlənməsi kontekstində 2002-ci ildən etibarən Aİ-nin qonşuları olacaq dövlətlərlə yeni əməkdaşlıq alətinin işlənməsinə başlandı. "Mehriban qonşuluq Sazişi" kimi müəyyən edilmiş proqramda əməkdaşlığın yeni alətləri, ilkin olaraq mövcud olan 'Tərəfdaşlıq və əməkdaşlıq Sazişi", həmçinin TACIS proqramı əsasında işlənib hazırlanması nəzərdə tutulmuşdu. "Yeni qonşuluq proqramının" məqsədi sərhədyanı əməkdaşlıq potensialının, sərhədyanı ərazilərin yəni, qonşuların sosial-iqtisadi inkişafının dəstəklənməsindən ibarət idi. 2004-cü ilin may ayının 12-d Avropa qonşuluq siyasəti. Ölkələrlə strategiya və məruzələr" adlı dərc olunmuş sənədd qonşuluq" çərçivəsində əməkdaşlığın əsas istiqamətləri göstərilirdi.*

**Açar sözlər:** Avropa İttifaqı, Yeni Qonşuluq, Cənubi Qafqaz, Kris Patten, Əməkdaşlıq
**Keywords**: European Union, New Neighbourhood, South Caucasus, Chris Pattenn, cooperation
**Ключевые слова**: Европейский Союз, Новое Соседство, Южный Кавказ, Крис Паттен, сотрудничество

**Giriş.** Sərhədlərinin qeyri-leqal miqrasiyadan təhlükəsizləşdirmək Aİ vətəndaşlarını beynəlxalq terrorizm, mütəşəkkil cinaətkarlıq və narkoticarət kimi, qeyri ənənəvi risklərdən qorumaq, yeni üzv dövlətlərə təhlükəsizlik,iqtisadi, stabil cəmiyyət qurmaq cəhdləri Avropa İttifaqını Mərkəzi və Şərqi Avropa, Cənubi Qafqaz, Rusiya və Baltikyanı dövlətlərlə bir sıra xüsusi proqramlar hazırlamağa təhrik edirdi. Bu proqramların əsas məqsədi və mahiyyəti qitənin müxtəlif ölkələri ilə inteqrasiya əlaqələrini genişləndirmək gələcəkdə onların Avropa İttifaqı ölkələri ilə əlaqələrini tənzimləmək idi. [1, s.593]

Avropaya inteqrasiyanın genişlənməsi kontekstində 2002-ci ildən etibarən Aİ-nin qonşuları olacaq dövlətlərlə yeni əməkdaşlıq alətinin işlənməsinə başlanmışdı. Avropa Komissiyasının bu yeni təşəbbüsünün xarakterini müəyyən edən əsas ifadə "Avropada yeni bölüşdürücü xətlərin yaranmasından qaçmaq" [5] çağırışı olmuşdur.

**Avropa Komissiyasının yeni təşəbbüsü.** İnkişaf etməyə başlamış yeni əməkdaşlıq proqramının ilk sənədi Kris Pattenin və Havyer Solanın Şuraya ünvanlandığı 07.08.2002 tarixində birgə məktubunda nəzərdə tutulan proqramın coğrafi çərçivələri, məqsədləri və həyata keçirilmə üsulları təsvir edilmişdir.

Məktubda qeyd edilirdi ki, Aİ-nin gələcək inkişafı üçün mövcud üç sərhəd regionlarından (Aralıq dənizi, Balkan və Şərqi) ən çox təsirə malik Şərq regionu olacaqdır.

Belə əməkdaşlığın əsas məqsədi " bizim təhlükəsizliyin əsasını təşkil edən sərhədlərimiz boyu stabilliyin, çiçəklənmənin, ümumi dəyərlərin və hüquqi normaların inkişafıdır ". [ 5 ]

"Mehriban qonşuluq Sazişi" kimi müəyyən edilmiş proqramda əməkdaşlığın yeni alətləri, ilkin olaraq mövcud olan "Tərəfdaşlıq və əməkdaşlıq Sazişi", həmçinin TACIS proqramı əsasında işlənilməsi nəzərdə tutulurdu.

Aİ-nin Kopenhagendəki dekabr sammitində (2002-ci il) Fransanın təkidi ilə proqram çərçivəsinə Aralıq dənizi regionunun dövlətləri daxil edildi [6] və beləliklə də "qonşu" dövlətlərin seçimində coğrafi amil ideyası dağılmış oldu. Məhz bu mərhələdə işlənilən

DOI:10.30546/gdu.5.2025

proqram indiki ikili "Genişlənmiş Avropa-yeni qonşuluq" adını almış olmuşdu.

“Yeni qonşuluq proqramının” məqsədi sərhədyanı əməkdaşlıq potensialının, sərhədyanı ərazilərin yəni, qonşuların sosial-iqtisadi inkişafının dəstəklənməsindən ibarət idi. 2004-cü ilin may ayının 12-d“ əAvropa qonşuluq siyasəti. Ölkələrlə strategiya və məruzələr” adlı dərc olunmuş sənədd“ əqonşuluq” çərçivəsində əməkdaşlığın əsas istiqamətləri göstərilirdi. Bunlara aşağıdakılar aiddir:

- İqtisadi və elmi-texniki əməkdaşlığın stimullaşdırılması;
- Siyasi dialoq və islahatlar;
- Sərhədyanı ərazilərin inkişafı üçün sərhədyanı və fiziki infrastrukturun yaxşılaşdırılması;
- Ticarətin və tərəfdaş ölkələrin Aİ-nin daxili bazarında mövqelərinin tədricən yüksəlməsi;
- Ətraf mühitin mühafizəsi və bərpa olunan enerji mənbələrinin istifadəsinin artırılması;
- Hüquq və daxili siyasətin tənzimlənməsi;
- Sərhədyanı turizmin və istirahətin inkişafı, turizmin infrastrulturunun modernləşdirilməsi, sərhəddə xüsusi əhəmiyyət kəsb edən mədəniyyət abidələrinin mühafizəsi;
- Enerji, nəqliyyat, informasiya və ictimai kommunikasiyanın inkişafı;
- Yerli icmaların təşəbbüsünün müdafiəsi;
- Sosial siyasət və insanlar arasında əlaqələrin inkişafı;
- Regionların mədəni özünəməxsusluğu və mədəni irsi;
- Terrorizmlə, kütləvi məhvedici silahlarının yayılmasına qarşı mübarizədə birgə fəaliyyət.

Bütün bu istiqamətlər öz əksini əməkdaşlıq üçün hazırlanmış xüsusi fəaliyyət planlarında tapmışdır.

AQS proqramında iştirak Cənubi Qafqaz dövlətlərinə müəyyən imkanları yaratmış olacaqdır. Bunlar aşağıdakılardır:

- İqtisadi, sosial, siyasi islahatların həyata keçirilməsi, demokratiyanın genişləndirilməsi sayəsində Avropa İttifaqının daxili bazarında müəyyən mövqeyə yerə tutmaq imkanı;
- Vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya proseslərinə qoşulmaq;
- Avropa İttfaqının üzvü olan dövlətlərlə səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, yeni maliyyə mənbələrinin əldə edilməsi, ümumdünya ticarət təşkilatına üzv olmağa dəstək, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq.
- Artıq 2004-cü ilin may ayında Aİ AQS-nın reallaşması üçün 225 milyon avro vəsait ayırmışdı.

Cənubi Qafqazda “Avropa qonşuluq siyasətinin” inkişaf istiqamətlərini müəyyənləşdirən Avropa Komissiyasının ilkin müraciətində Cənubu Qafqaz dövlətlərinin "bu gün proqramın cografi çərçivəsinə daxil olmayan" [9] kimi qeyd edilməsi, cənubi Aralıq dənizi ölkələri ilə bağlı hadisə yada saldıqda, açıq bəhanə olduğu müşahidə edilirdi.

Bu “ideya” Gürcüstandakı "məxməri inqilabdan" əvvəlcə irəli sürülmüşdü. Bu vaxta qədər biz Gürcüstandakı vəziyyətdən çox narahat idik: ekspertlərin öldürülməsi, insanların oğurlanması və s. Ona görə də biz hesab edirdik ki, “müvəffəqiyyətsiz dövləti" həvəsləndirməyə ehtiyac yoxdur. Bu düşünülmüş qərar deyil, daha çox müəyyən qərarın qəbul edilməsinə imkan verməyən hadisələrin toplusundan ibarət idi. [8]

Proqram tərtibatçılarının fikrincə isə Cənubi Qafqaz ölkələri Avropa İttifaqının üzvü olan 25 dövlətdən heç biri ilə birbaşa sərhədə malik deyildilər. Digər tərəfdən hər üç ölkə

DOI:10.30546/gdu.5.2025

Avropa Şurasının və ATƏT-in müəyyənləşdirdiyi meyarlara cavab verməli idi. (Məsələn: Ermənistanın Azərbaycana təcavüzü və.s.).

Hər bir halda Cənubi Qafqazın "Genişlənmiş Avropa - yeni qonşuluq" proqramına qoşulmaması həm Avropa İnstitutları, həm də ekspertlər tərəfindən tənqid dalğası ilə üzləşdi.

Parlamentin məruzəsində münaqişələrin nizama salınması kimi bir təşəbbüsün vacibliyini nəzərə alaraq Cənubi Qafqaz dövlətləri üçün "Genişlənmiş Avropa-yeni qonşuluq" proqramı çərçivəsində xüsusi siyasət hazırlanması tövsiyə edilirdi. [4]

Bununla razılaşmayan Azərbaycan, Ermənistan və Gürcüstan Avropa qonşuluq siyasətindən kənarda qalmalarına etiraz etdilər.

**Cənubi Qafqazın "Yeni qonşuluq" siyasətinə qoşulması.** Azərbaycan, Gürcüstan və Ermənistan "yeni qonşuluq" siyasətinə qoşulmasına səbəb olan amillərdən biri təşkilatın sərhədlərinin Qara dəniz sahillərinə qədər genişlənməsi oldu. 2007-ci ilin yanvarında Ruminiya və Bolqarıstanın Aİ üzvlüyünə daxil olması ilə Cənubi Qafqaz dövlətlərindən Gürcüstanın Aİ ilə coğrafi sərhəddi yaranmış oldu. Qara Dənizə birbaşa çıxışı olmayan Azərbaycan və Ermənistan is" əQara Dəniz region" adlanan geniş mənalı qonşu ölkələr qrupuna daxil idilər.

Ümumilikdə isə Avropa qonşuluq siyasəti Avropa İttifaqının Qafqaz regionuna nüfuz etməsi üçün ən yaxşı vasitələrdən biri sayılırdı.

2004-cü il yanvarın sonunda ÜXSTS-in Ali nümayəndəsi ilə məsləhətləşmələrin və Aİ-nin regiondakı Xüsusi nümayəndəsinin tövsiyələri əsasında Şura, Komissiyanı 2004-cü ilin iyunun sonuna kimi Azərbaycan, Ermənistan və Gürcüstanı "Genişləndirilmiş Avropa-yeni qonşuluq" proqramı çərçivəsinə daxil edilməsi ilə bağlı tövsiyələrin işlənib hazırlanmasına çağırdı. [3]

Nəhayət, 2004-cü il iyunun 14-də Komissiyanın Avropa "yeni qonşuluq siyasətinin strategiyası" [9] müraciəti əsasında, Şura proqramın üç Cənubi Qafqaz dövlətinə aid edilməsi barəsində qərar qəbul etdi.

Proqramda müəyyən çatışmazlıqlarına baxmayaraq Cənubi Qafqazın dövlətlərinə aid edilməsi mühüm simvolik bir jest olub Aİ-nin Cənubi Qafqaz ilə münasibətlərində yeni mərhələnin açılışı demək idi.

Aİ-nin bu xarici siyasətinin regionda xarici siyasət prioritetlərinin daha düzgün bölmək istəyin Cənubi Qafqazla əməkdaşləğın siyasi istiqamətləərini seçməyə və nəticədə iqtisadi əlaqələrin daha zəruri olduğunu dərk edilməsinə gətirib çıxarırdı.

Yüksək səviyyəli görüşlər Avropa İttifaqının proqramınadaxil etmək haqqında qəti qərar qəbul etməyə imkan Verdi. 2004-cü il iyunun 14-də Azərbaycan, Gürcüstan və Ermənistan "qonşuluq" proqramının tam üzvü oldular.

Proqramın tam hüquqlu iştirakçısı olmaq prinsipinə uyğun olaraq Cənubi Qafqaz dövlətləri Avropa İnstitutların insan hüquqlarına hörmət, qanunların aililiyini təmin etmək, xarici siyasət sahəsində beynəlxalq hüquq normalarına hörmət, ölkədə iqtisadi və social dəyişikliklərin keçirilməsi kimi dəyərlərə ciddi riayət edildiyini nümayiş etdirmək məcburiyyətində idilər.

2005-ci il martın 2-də Avropa Komissiyası Avropa Şurasına "Avropa qonşuluq siyasəti- Ermənistan, Azərbaycan, Misir və Livana tövsiyələr" [2] adlı müraciət dərc etdirdi. Müraciətdə region dövlətlərinə korrupsiya və dələduzluqla mübarizə, qanunların aliliyinin möhkəmlənməsi və demokratik nəzarət, dövlət sektorunun modernləşməsi, keyfiyyətli və şəffaf idarəçilyin yaranması, bazar iqtisadiyyatının xeyrinə islahatların keçirilməsinin dəstəkələnməsi tövsiyə edilirdi.

**Nəticə.** Ümumilikdə, Cənubi Qafqaz dövlətləri üçün Avropa qoşuluq siyasətinin

DOI:10.30546/gdu.5.2025

əhəmiyyəti nə ilə izah edilir. Əvvəla Avropa qonşuluq siyasəti, onların xarici siyasətinin diversifikasiyasına yönəlməsinə səbəb olurdu. Bu da öz növbəsində Rusiya ilə müqayisədə Cənubi Qafqaz dövlətlərinə diqqətin artmasına, onlara dəstəyin daha da çoxalmasına səbəb olurdu. Digər tərəfdən Cənubi Qafqaz dövlətləri Avropaya inteqrasiyada israrlı olub, uzun müddətli perspektivdə Avropa İttifaqına daxil olmağa çalışırdılar.Bu dövlətlər Avropanın aparıcı siyasi və iqtisadi xəttiilə yaxınlaşmaq üçün yollar axtarırdılar. Xüsusilə Ermənistan ümid edirdi ki, onun Avropa İttifaqı ilə sıx təmasları Türkiyəyə yönələn təzyiqləri artıracaq, nəticədə Türkiyə Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarınişğalı ilə bağlanan sərhədləri açaçaqdır. Avropa İttifaqı və onun Cənubi Qafqazdan olan tərəfdaşları Avropa qonşuluq siyasətinə digər dünya ölkələrinin regiona diqqətini cəlb etmək və siyasi iqtisadi problemlərinin həll etmək imkanı kimi yanaşırdılar.

***Ədəbiyyat***

1. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti – Bakı; Şərq-Qərb, 2007
2. Communication de la Commission au Conseil. Politique europeenne de voisinage-Recommandationa pour /Armenie/Azerbaidjan et la Georgie, et pour /Egypte et le Liban.com (2005). 72 fianl.02.03.2005
3. European Commission , Communication “European Neighbourhood Policy Strategy Paper” com (2004) 373 fianl, Brussels, 12.5.20004
4. Napoletano P.Report on “Wider Europe – Neighbourhood: A New Framework for relations with our Elastern and southern Neighbours, European Parliament, committee on foreign Affair. Human Reights, common security and defence policy 5.11.2003 5.0378/2003 final.
5. Patten Chris, Solana Javier. Vider Europe, letter to the VAC, 07.08.2002
6. Алан Делетроз, аналитик Международной кризисной группы, комментарий на семинаре «Caucasian Preconditions for the development of a Commen European Rolucy towards the Sonthorn Caucasus», Heinrich Bolt Foundation, Brussels, 9.11.2004
7. Гайнанов Р.Р. Перспективы реализации программы «Восточное партнёрство» в странах Южного Кавказа на период 2014-2020 гг. Мир и политика №9 сентябрь 2013 г.
8. Патрик Дюроп. Европейскаякомиссия, ДСRelex, отдел по предоьврщению конфликтов и кризисному урегулированию, личная беседа, Брюссель, октябрь 2004.
9. Мамедли А. Демократия и надлежащее управление в контексте Восточного Партнёрства: Взгляд из Азербайджана // Восточное Партнёрство для Южного Кавказа/ Под. ред. И. Менагаришвили, Л.Асатиани – Тбилиси: Грузинский Биографический центр. 2011

## SOUTH CAUCASUS COUNTRIES IN THE EU NEW NEIGHBOURHOOD PROGRAMME

***Hajiyeva Khatira Ziya***

***Summary***

In the context of expanding European integration, since 2002 the European Union has begun to develop new ways of cooperation.

At first, before the development of new mechanisms, the Good Neighbourhood Programme was based on the Partnership and Cooperation Agreement and the Tacis Programme.

The role of the New Neighbourhood Programme is to deepen cooperation with adjacent territories. In the "European Neighbourhood Policy" Programme "Discussions and

DOI:10.30546/gdu.5.2025

Strategy" within the framework of "Neighbourhood" published on 12 May 2004, the fundamental priorities for the implementation of the programme were outlined. The European Union allocated 225 million euros to the ENP in 2004.

In January 2004, the EU Council called for recommendations on the inclusion of Azerbaijan, Armenia and Georgia in the framework programme "Wider Europe - New Neighbourhood". Based on the EU Commission's appeal of 14 June 2004 "Strategy for the New Neighbourhood Policy", the Council adopted a resolution on the inclusion of all South Caucasus states in the Wider Europe - New Neighbourhood Programme.

## СТРАНЫ ЮЖНОГО КАВКАЗА В ПРОГРАММЕ ЕС "НОВОЕ СОСЕДСТВО"

***Гаджиева Хатира Зия кызы***

***Резюме***

В контексте расщирения Европейской интеграции с 2002 года Европейский Союз начал разрабатывать новые способы сотрудничества.

На первых порах, до разработки новых механизмов Программа "Добрососедское сотрудничество" базировалось на соглашении "О Партнерстве и Сотрудничестве" и Программе Tacis.

Роль Программы "Новое соседство" заключается в углублении сотрудничества с сопредельными территориями. В опубликовенной 12 мая 2004 года Программе "Политика еврососедства" обсуждения и стратегия" в рамках" Соседство" были обозначены основополагающие приоритеты для реализации программы. ЕПС. Европейским Союзом в 2004 г. было выделено 225 млн. евро.

В январе 2004 г. Совет ЕС прозвал подготовить рекомендации в связи с подключением Азербайджана, Армении и Грузии в рамочную Программу "Расширенная Европа - новое соседство". На основе обращения Комиссии ЕС от 14 июня 2004 года "Стратегия политики Нового соседства", Совет принял резолюцию о включении всех Южно Кавказских государств в Программу расширенная еврососедства.

***Rəyçi:t.e.d.,prof.İbrahim Kazımbəyli***
***Daxil olma tarixi 08 oktyabr 2025-ci il***